

Futbol üzrə Çempionlar Liqasında Şotlandiya "Seltik"i ilə ilk "pley-off" matçından öncə Qazaxıstanın "Şaxtyor" komandasının stadionda qurban kəsməsi ictimai təşkilatların narazılığına səbəb olub.

ABŞ-ın "İnsanlar heyvanlarla etik davranış lehinə" təşkilatı UEFA prezidenti Mişel Platiniyə müraciət edib.

Təşkilat Platinidən Avropa futbolunda qurban kəsilməsi hallarına qadağa qoymağı tələb edib: "Biz qoçun Qazaxıstan komandasına uğur gətirməsi münasibətilə kəsilməsindən çox narahatıq. Ümidvarıq ki, Platini müasir cəmiyyətdə heyvanların qurban verilməsinə yer olmadığı ilə razılaşacaq və UEFA gözəl oyunun heyvan qanına boyanmasına operativ reaksiya verəcək".

Qeyd edək ki, Almatıdakı "Astana Arena"da qoyunun qurban kəsilməsi ritualı "Şaxtyor"a uğur gətirib. Qazaxıstan komandası 2:0 hesablı qələbə qazanıb. Cavab görüşü avqustun 28-də Qlazqoda olacaq.